# Maarifləndirici tədbir



***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair strateji yol xəritəsi"nə uyğun olaraq heyvandarlıq təsərrüfatlarında yaranan metan qazının yığılması və bərpa olunan enerji kimi istifadəsinin təşviq olunması Ekologiya və Təbii Sərvətlər, Kənd Təsərrüfatı nazirlikləri ilə birgə yerli icra hakimiyyəti orqanlarına tapşırılmışdır.***

Sərəncamdan irəli gələn məsələlərin icrasına uyğun olaraq dekabrın 6-da Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Qəbələ Rayon İcra Hakimiyyətinin birgə təşəbbüsü ilə şəhər 5 nömrəli tam orta məktəbin akt zalında təşviqat qrupu tərəfindən maarifləndirici tədbir keçirilmişdir.

İnzibati ərazi nümayəndələrinin, bələdiyyə sədrlərinin və yerli fermerlərin qatıldığı tədbirdə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometerologiya Departamentinin direktor müavini İmran Abdulov, həmin departamentin iqlim dəyişmələri və ozon mərkəzinin şöbə müdiri Ceyhun Həsənov və Qəbələ Rayon İcra Hakimiyyəti sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi müdirinin müavini Ramil Qəribov iştirak etmişlər.



Disput şəklində keçirilən görüşü Ramil Qəribov açmışdır.

Mövzu ilə bağlı İmran Abdulov və Ceyhun Həsənov tədbir iştirakçılarına ətraflı məlumat vermişlər.

Sonra tədbir iştirakçıları ilə fikir mübadiləsi aparılmış, irəli sürülən təkliflər və onları maraqlandıran suallar cavablandırılmışdır.

**"Qəbələ"**

# Ağacəkmə aksiyası keçirilmişdir

Ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyinin bütün dövrlərində ətraf mühitin mühafizəsinə, ekoloji durumun yaxşılaşdırılmasına, xüsusilə yaşıllaşdırmaya mühüm önəm verilib. Bu məqsədlə geniş və çoxşaxəli proqramlar qəbul olunub, irimiqyaslı tədbirlər həyata keçirilib. Ulu öndərin müəyyənləşdirdiyi ekoloji siyasət bu gün Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir.

Dövlət başçısının respublikada ekoloji tarazlığın qorunması istiqamətində verdiyi tapşırıqlara uyğun olaraq Yeni Azərbaycan Partiyasının yaradılmasının 25-ci ildönümü münasibətilə YAP rayon təşkilatı və rayon icra hakimiyyətinin birgə təşəbbüsü ilə dekabrın 2-də Qəbələdə ağacəkmə aksiyası keçirilmişdir. Aksiyanın keçirilməsində məqsəd təbii mühitin, yaşıllıqların qorunmasını və genişləndirilməsini təbliğ etmək, yeni yaşıllıq zolaqlarının salınması və mühafizəsi işlərini gücləndirməkdir.

Keçirilən iməcilikdə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, icra hakimiyyəti aparatının, hüquq mühafizə orqanlarının, idarə, müəssisələrin kollektivləri və rayon sakinləri iştirak etmişlər.

500 nəfərin iştirak etdiyi ağacəkmə aksiyasının iştirakçıları şəhərin Zərifə Əliyeva küçəsində və məhəllədaxili ərazilərdə 3363 ədəd şam, çinar, qovaq və göyrüş ağacları əkilmişlər.

**"Qəbələ"**

# 90 hektar sahədə bağ salınıb

***Bu il ilk dəfə olaraq Qəbələ rayonunun meşə fondunun torpaqlarında meyvə ağaclarından ibarət bağ-meşəliklərin salınmasına start verilib.***

Rayonda payız mövsümündə yeni meşəliklərin salınması işlərinə ötən ayın əvvəlində start verilib və hazırda ağac əkini işləri davam etdirilir. Mövsümdə plana uyğun olaraq rayonun Bum, Vəndam, Yenikənd və Zarağan meşəbəyliklərinin ərazisindəki dövlət meşə fondunun torpaqlarında 100 hektar sahədə bağ sahəsinin salınması nəzərdə tutulur. Bu günədək 90 hektar sahədə meyvə ağaclarının əkini aparılıb və hazırda bu istiqamətdə işlər davam etdirilir. Əraziyə qoz, şabalıd, fındıq və alma ağaclarının tingləri əkilib. Bağların salınmasında müəssisənin tingçilik təsərrüfatında yetişdirilən ağaclardan istifadə olunur. Yaxın günlərdə baramaçılığın inkişafı üçün 3 hektar sahədə yeni tut bağlarının salınması nəzərdə tutulur.

Qeyd edək ki, Qəbələ rayon Meşələrin Mühafizəsi və Bərpası Müəssisəsinin meşə torpaqları genişləndirilərək 33 min 393 hektara çatdırılıb. Rayon meşəçiləri bu ilin yaz aylarında rayonda meyvə ağaclarından ibarət 110 hektar sahədə bağ salıblar.

**Səhrab UMUYEV,**
**«Qəbələ»**

# Sizə uğurlar olsun

Bayramkoxalı Bələdiyyəsi üç kəndi—Bayramkoxalı, Mamaylı və Ovcullu kəndlərini əhatə edir. Bələdiyyənin sədri Vidadi İsayev 2008-ci ildə bu vəzifəyə seçilib. Bu yaxınlarda onunla görüşüb 2017-ci ildə bələdiyyə ərazisində görülən işlər və 2018-ci ildə görüləsi işlər barədə məlumat verməsini xahiş edəndə dedi:

—2017-ci il Bayramkoxalı bələdiyyəsi üçün uğurlu olub. Qobu çayında bəndbasma işləri lazımi qaydada görülüb. Bayramkoxalı kəndi ərazisində 3000 metr, Mamaylı kəndi ərazisində 2000 metr su arxları qazılıb, təmizlənib, kəndlərdə abadlıq işləri aparılıb. Mamaylı kəndinin mal-qarası üçün rayon icra hakimiyyəti başçısının köməkliyi ilə 40 hektar örüş sahəsi ayrılıb, Ovcullu kəndində isə içməli su ilə əlaqədar yaranmış çətinliklərin aradan qaldırılmasına lazımi köməklik göstərilib.

Cari ildə 7 hektar sahədə tütün əkilib. Bu vaxta kimi Şəki tütün kombinatına 5 ton quru tütün təhvil verilib. Tütün təhvili davam edir. Tütünçülüklə 12 ailə məşğul olur, 10 ailə Mamaylı, 2 ailə isə Bayramkoxalı kəndindədir. Tazıl əkin-biçin sahəsində də uğurlarımız olub. Kənd əməkçiləri hər hektardan 28-30 sentnerə kimi arpa və buğda götürə biliblər. Bu heç də kiçik rəqəm deyil. Havaların əlverişli keçməsindən istifadə edən torpaq mülkiyyətçiləri payız əkini kampaniyasını da müvəffəqiyyətlə başa çatmışdır. Baramaçılıq sahəsində də az işlər görülməyib. Baramaçılarımız 260 kiloqram barama istehsal edərək aidiyyatı təşkilatlara təhvil verib. 2018-ci ildə bu rəqəmi 500 kiloqrama çatdırmaq niyyətindəyik.

Bələdiyyə sədri onu da qeyd etdi ki, 2018-ci il üçün bir çox işlər nəzərdə tutulub: Kəndlər arası yollara çınqıl döşənməsi, tütün sahəsinin 32 hektara çatdırılması, 5000 ədəd tut tinginin əkilməsi və sairə. Vidadi müəllim danışdıqca bu işgüzar insanın işlərinin qaydasında olacağına məndə bir əminlik hissi yaranırdı. Çünki sözü ilə əməli bir olan insanlar heç vaxt yalan danışmağı bacarmırlar. Bələdiyyənin sədrinə uğurlar arzulayıb ayrıldım.

**Cəlil SƏFƏRÇİNOV,**
**«Qəbələ»nin ştatdankənar müxbir postunun rəhbəri.**

# Rəqəmlər dinamik inkişafdan xəbər verir

## Qəbələ rayonunda aqrar sektorun şaxələndirilməsi yeni perspektivlər açıb

***Ölkəmizdə kənd təsərrüfatının inkişaf etdirilməsinə dövlət tərəfindən göstərilən dəstək və qayğı ildən-ilə artır. Azərbaycan Respublikası Prezidentinin "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" sərəncamı bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Həmin sərəncam kənd təsərrüfatı məhsulları istehsalçılarına böyük stimul verib. Bunun nəticəsidir ki, Qəbələ rayonunda da kənd təsərrüfatı sahəsində əhəmiyyətli dəyişikliklər hiss edilməkdədir.***

Qəbələ Rayon Kənd Təsərrüfatı İdarəsinin rəisi Rahib Əhmədovla söhbətimiz bu barədə oldu. O bildirdi ki, adı çəkilən sərəncamın icrası ilə əlaqədar cari ildə rayonda 5969 nəfər kənd təsərrüfatı məhsulları istehsalçısına 15 min 442 hektar əkin sahəsinə görə dövlət büdcəsinin vəsaiti hesabına 1 milyon 186 min 490 manat yardım hesablanıb və həmin vəsaitin plastik kart vasitəsilə məhsul istehsalçılarına çatdırılması təmin olunub. Bundan əlavə, güzəştli qaydalarla 612 nəfərə 2100 ton gübrə, 435 nəfərə 5019 litr pestisid verilib.

Sonra söhbət görülən işlərdən, qazanılan uğurlardan düşdü. Öyrəndik ki, ötən ilin payızında rayonda 21 min 47, bu ilin yazında 101 hektar sahədə taxıl əkilmişdi. Onun 16 min 363 hektarı buğda, 4785 hektarı arpa sahələri idi. Orta hesabla hər hektardan 32,1 sentner məhsul götürülmüşdür.

Cari ildə 12260 ton kartof, 7601 ton tərəvəz, 1803 ton qarğıdalı, 116 ton bostan məhsulları da istehsal olunub. Hazırda rayonda 6854 hektar meyvə bağları, 509 hektar üzüm plantasiyaları var. Həmin bağlardan bu il 13 min 697 ton meyvə, 1906 ton üzüm yığılıb.

Rayonda fəaliyyət göstərən 2 müasir heyvandarlıq kompleksi və 4 ədəd heyvandarlıq təsərrüfatı əhalinin heyvandarlıq məhsullarına olan tələbatının ödənməsində mühüm rol oynayır.

Heyvandarlıq məhsulları istehsalının artırılmasında, mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasında mühüm rol oynayan süni mayalama tədbirlərinin həyata keçirilməsi genişləndirilir. Hazırda rayonda 9 nəfər süni mayalama mütəxəssisi fəaliyyət göstərir. Bu ilin 9 ayı ərzində süni mayalandırılmış heyvanlardan 2202 baş buzov alınıb. Heyvan sahiblərinə 124 min 400 manat subsidiya verilib. Bu iş mütəmadi olaraq hər ay davam etdirilir.

Rayon balıqyetişdirmə zavodunda da işlər ahəngdar gedir: Zavodun kollektivi bu il Kür çayına 30 min 700 ədəd qızıl balıq buraxıb. Hazırda zavodda 90 min körpə balıq yetişdirilir.

Heyvandarlığı inkişaf etdirmək, mal-qaranın yemə olan tələbatını ödəmək üçün taxıl sahələri 1500 hektara qədər azaldılaraq həmin sahələrdə yem bitkiləri əkilib. Bundan əlavə, bu il 16,5 hektar sahədə qarabaşaq, 20 hektar sahədə şəkər çuğunduru, 1 hektar sahədə çəltik əkilib. Fındıqçılığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi fermerlərdə yeni fındıq bağlarının salınmasına stimul yaradıb və bu sahədə xeyli iş görülüb.

Keçən ildən rayonda barama istehsalına da başlanılıb. Cari ildə 55 nəfər kümçülər 2860 kiloqram barama istehsal ediblər. Barama istehsalını daha da artırmaq üçün 2016-cı ilin payızından etibarən tut tinglərinin əkilməsinə başlanılıb. Rayonda barama qəbulu və qurutmaxanası məntəqəsinin yaradılması da nəzərdə tutulub. Kənd əməkçilərinin tütünçülüyə də marağı artıb. Elə bunun nəticəsidir ki, cari ildə 70 hektar sahədə tütün əkilib. İndiyədək 80 tondan çox quru tütün istehsal olunub. Hazırda tütün tədarükü davam edir.

Məlumdur ki, yüksək məhsuldarlığın əldə olunmasında kondisiyalı toxum mühüm rol oynayır. Rayonda fəaliyyət göstərən 5 özəl toxumçuluq təsərrüfatının yetişdirdiyi toxumluq əkin sahələrində sınaqdan çıxarılaraq ortaq məhsuldarlıq müəyyən edilib. Toxumluq sahələrin məhsuldarlığı 35-40 sentner olub.

Rayon tingçilik təsərrüfatında 5 hektar yeni fındıq bağının salınması üçün hazırlıq işləri görülür. Bu məqsədlə 4000 ədəd fındıq, 1500 ədəd tut tingi, 400 ədəd alma tingi yetişdirilib.

Bu ilin 9 ayı ərzində 0,7 hektar sahədə badam, 73 hektar sahədə fındıq, 5,6 hektar sahədə alma, 24,6 hektar sahədə şabalıd, 6,10 hektar sahədə qoz tingi əkilib. 110 hektar sahədə yeni meyvə bağı salınaraq ümumilikdə 28 min 100 ədəd ting əkilib. Müəssisənin tingçilik ərazisində xeyli tut, qoz, şabalıd və alma tingləri yetişdirilib. 130 kiloqram toxum tədarük edilərək aqro-meşə bağ massivinin salınması üçün 6 hektar sahədə torpaq hazırlığı işləri aparılıb.

Bakı şəhərində təşkil edilən kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarında da rayonun kənd təsərrüfatı məhsulları istehsalçıları iştirak edirlər. 2017-ci ilin altı ayında həmin yarmarkalarda 21,3 ton tumlu, 14 ton qərzəkli meyvələr, 3,5 ton müxtəlif tərəvəz məhsulları satılıb.

Həmsöhbətim axırda onu da qeyd etdi ki, qazanılan uğurları növbəti illərdə artırmaq, daha çox və daha keyfiyyətli kənd təsərrüfatı məhsulları istehsal etmək üçün aqrar sektorun şaxələndirilməsi qarşıda duran əsas məsələlərdən biridir. Bununla bərabər, torpaq sahibləri arasında pay torpaqlarının könüllülük prinsipi əsasında birləşdirilərək iri təsərrüfatların yaradılması istiqamətində də işlər aparılır. Belə təsərrüfatların yaradılması iqtisadi cəhətdən səmərəli olmaqla yanaşı, bütün aqrotexniki qaydalara riayət olunması üçün şərait yaradır.

**Əli XASAYOĞLU,**
*"Azərbaycan" qəzeti,*
*19 noyabr 2017-ci il.*